# Distant təhsil sisteminə nəzəri baxış

**Nailə Nağızadə**
*Baki Qızlar Universtiteti*
**E-mail:** nagizadeh1993@mail.ru

**Rəyçilər:** ped.ü.f.d., dos. P.M. Həsənova,
ped.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** vətəndaş cəmiyyəti, təhsilanlar, distant təhsil
**Ключевые слова:** гражданское общество, учащихся, дистанционное образование
**Key words:** civil society, educators, distance education

Məlumdur ki, cəmiyyətin inkişafı təhsildən keçir. Bu inkişaf həmişə təhsillə bağlı olmuş, cəmiyyət və təhsil, yaxud təhsil və cəmiyyət ahəngdarlığı insanların, eləcə də ölkənin, dövlətin davamlı inkişafını təmin etmişdir.

Təhsildəki başlıca keyfiyyətlər nəzərə alınaraq təhsil məfhumuna belə tərif verilmişdir: sosial-iqtisadi həyatın tərkib hissəsi kimi, təhsil-müvafiq tədris müəssisəsində müəyyən müddətdə məqsədyönlü, planlı və mütəşəkkil öyrədilən, tərbiyə və psixoloji inkişaf imkanları olan, təlimin bir halda zəruri şərti, digər halda isə nəticəsi kimi özünü göstərən, habelə milli və ümumbəşəri səciyyəli biliklər, bacarıq və vərdişlər sistemidir.

Azərbaycan Respublikasının Konstitusiyasında müəyyənləşdirilmiş təhsil hüququ müxtəlif yollarla həyata keçirilir. Bu yollardan biri də təhsilin formalarındakı rəngarənglikdir. Azərbaycanda distant təhsilin rəsmi yaranma tarixi «Təhsil haqqında» yeni Qanunun təsdiq edildiyi 19 iyun 2009-cu il hesab olunur. Qanunun 13-cü maddəsinə əsasən Azərbaycanda təhsil almanın 4 forması mövcuddur. Onlar əyani, qiyabi, distant (məsafədən) və sərbəst (eksternat) təhsil formaları. Təhsilalma formaları çərçivəsində evdə təhsil və fərdi təhsil təşkil oluna bilər.

Fərdi təhsil - müxtəlif səbəblərdən uzun müddət təhsildən kənarda qalmış şəxslər, habelə müəyyən bir sahə üzrə xüsusi istedadı ilə fərqlənən şagirdlər üçün tətbiq edilən təhsil formasıdır.

Evdə təhsil müvafiq təhsil proqramlarına uyğun olaraq ümumi təhsilin evdə təşkili formasıdır.

Distant təhsil müəyyən məsafədən keçirilən təlim sistemi olub, öyrədən və öyrənən arasında telekommunikasiya və kompüter şəbəkələri vasitəsi ilə operativ, müntəzəm dialoq, əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirildiyi təhsil formasıdır. Təhsilin distant formasından daha çox müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan insanlar üçün əlverişlidir. Distant təhsil forması ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyini, fəallığını, şüurluğunu, yaradıcılığını optimal inkişaf etdirir. Bundan başqa, bu sistemdə az vaxtda daha çox elmi məlumatlar əldə etmək olur, tələbənin sistemli biliklər alması şüurlu və məntiqi imkanları genişlənir. Avropanın bir çox ölkələrində bu təhsil formasından geniş istifadə olunur. Belə ki, bu, Bolonya təhsil sistemində də əksini tapıb. Qloballaşma şəraitində əyani təhsil sistemi geniş yayılsa da, distant təhsil texnologiyalarına tələbat get-gedə artır. Dünya təhsil sistemində əyani təhsil forması geniş yayılıb. Mütəxəssislər isə hesab edirlər ki, əyani təhsil keyfiyyət baxımından yaxşı olsa da, bunun üçün böyük vəsait tələb olunur. Təhsilin əyani və qiyabi formaları ilə müqayisədə açıq distant təhsil forması xeyli üstünlüklərə malikdir.

Son illər distant təhsil formasından istifadə sayı kəskin şəkildə artıb. Bu, əhalinin bütün təbəqələri üçün ən münasib təhsil formasıdır. Distant təhsilin məqsədi müasir informasiya texnologiyalarından istifadə etməklə təhsil alanın ixtisasının artırılmasıdır. Hesab olunur ki, distant təhsil formasını ilk yaratmaq cəhdi 1840-cı ildə edilib. Həmin vaxt İsaak Pitman poçt məktubları vasitəsilə Birləşmiş Krallıqda tələbələrə stenoqrafiyanı öyrətməyə başlamışdı. Distant təhsildə müxtəlif təhsil proqramları, texnologiyalar və tədris forması birləşir. “Təhsil haqqında” Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanununun 1.0.9., 10.5 və 13.1.3 bəndlərində distant təhsil haqqında daha ətraflı məlumat verilir. Distant təhsilin tarixi əyani şəkildə göstərir ki, o, dünyanın müxtəlif ölkələrində cəmiyyətin təhsil sahəsində yeni tələblərinə adekvat, relevant təhsil formasıdır. Təhsil xidmətlərinin təqdim edilməsinin yüksək operativliyini təmin edən distant təhsil XXI əsrdə təhsilin ən səmərəli forması olacaqdır. DT mobil virtual təhsil mühiti yaradılması və hər bir müdavim üçün çəkilən xərclərin ənənəvi təhsil sistemləri ilə müqayisədə 2-3 dəfə azaldılması hesabına təhsilin yüksək keyfiyyətini saxlamaqla təhsil xidmətlərinin əlyetərli olmasını təmin etməyə imkan verir. Distant təhsilin açıqlığı, yəni qəbul imtahanları vermədən ali təhsil almağın mümkünlüyünə təminat verilməsi də şəbəkə təhsil xidmətlərinin potensial istifadəçiləri üçün mühüm amildir.

Təhsilin strateji məsələləri üzrə mütəxəssislərin XXI əsrin təhsil sistemi adlandırdığı distant təhsil forması, öyrədən və öyrənən arasında telekommunikasiya və kompyuter şəbəkələri vasitəsilə operativ, müntəzəm dialoq və əks əlaqə əsasında, uzaq məsafədən həyata keçirilir. Bu baxımdan elm və texnikanın, texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə peşə biliklərinin daha tez köhnəlməsi labüddür, bu baxımdan onların da daim yeniləşdirilməsinə davamlı olaraq ehtiyac vardır. Distant təhsildə tapşırıqlar, testlər və əlavə materiallar tələbəyə elektron variantda internet vasitəsilə göndərilir, tələbə də bütün testləri, çalışmaları yerinə yetirərək fərdi qaydada öz biliklərini artırır. Məkan və zaman, məsafədən asılı olmayaraq kütləvi fasiləsiz təhsil sistemini habelə, qlobal informasiya mübadiləsi sistemini yaratmağa imkan verən bu təhsil forması,sosial durumundan asılı olmayaraq, ölkənin istənilən rayon və şəhərində, xarici ölkələrdə təhsil almaq və informasiya əldə etmək hüququnun həyata keçirilməsi üçün bütün insanlara (şagirdlər, tələbələr, mülki şəxslər, hərbiçilər, işsizlər və s.) bərabər şərait yaradır. Məsafəli təhsil (Distant) proqramı, təhsil müəssisələrinin, şagirdlərin tək başına təhsili reallaşdırmasına kömək etmək üçün müəyyən bir nizamda hazırladıqları dərs proqramı ilə həyata keçirilən sistemdir ki, bu sistemdən istifadə etmək istəyən tələbələr faks, poçt və ya e-poçt kimi üsullarla şagirdlərə, ixtisaslı bir müəllim tərəfindən hazırlanan dərslə əlaqədar tapşırıq mövzuları verilir. Daha sonra tapşırıqlar və sınaqlarla bağlı qiymətləndirilir. Təhsilin bu formasında informasiyalar öyrənənlərə çap materialları, elektron materiallar, elektron dərslik, televerilişlər və s. formalarda təqdim edilir. Bu tədrisin veriləcək informasiyalarının kitablar, disklər, audio-video kasetlər kimİ daşıyıcıları vardır. Təhsilin distant formasından müəyyən səbəblər üzündən təhsilini artırmaq imkanı olmayan insanlar yararlanır. Bu təhsil forması daha çox dərslərdə getmək və mühazirələri dinləmək imkanı olmayan şəxslər üçün əlverişli olub, ənənəvi təhsil formalarına nisbətən öyrənənlərin müstəqilliyi, fəallığını, şüurluğunu, yaradıcılığını optimal inkişaf etdirir. Hazırda fərdi kompyuterlərin əldə olunmasının asanlığı və internetə çıxışın kütləviliyi məsafədən təhsilin daha geniş və sürətlə yayılması üçün əlverişli şərait yaradır. Yerləşdiyi məkandan asılı olmayaraq hər bir şagirdlə danışmaq və əks istiqamətdə rabitə qurmağın mümkünlüyü “sürətli internet”in genişlənməsi təhsildə “onlayn” seminarların keçirilməsinə imkan yaratmışdır. Bütün bunlar distant təhsil formasının artıq

dünyanın bir çox ölkəsində geniş yayılması ilə nəticələnmişdir.

**Məqalənin aktuallığı**. Tədqiqatlar göstərir ki, təhsil sistemi olduqca geniş anlayışdır. Distant təhsil sistemi də xüsusi əhəmiyyətə malik olub, böyük çevrəni əhatə edir. Onun sistem halına gəlib çıxması illərin məhsulu olub, müxtəlif modellərin birləşməsindən ibarətdir. Bu məsələnin tədqiqi Azərbaycan təhsilinin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da aktuallığa malikdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə təhsilalma formaları çərçivəsində evdə təhsil və fərdi təhsilin mahiyyəti açıqlanır və əsas istiqamətləri göstərilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. Məqalədə əksini tapmış fikirlər, əldə olunmuş elmi nəticələr Azərbaycan təhsilinin inkişaf tarixinin öyrənilməsinə töhfələr verir. Bu elmi nəticələr problemlə bağlı araşdırma aparanlar, pedaqogika, tarix və digər fənn müəllimləri üçün əhəmiyyətlidir .

## Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2006.
3. "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası", 2013-cü il 24 oktyabr
4. Təhsil üzrə dövlət strategiyası, perspektivlər və vəzifələr. Bakı, 2015.

**Н. Нагизаде**

## Теоретический взгляд к систему дистанционного образования

## Резюме

Статья посвящена истории, сущности и дистанционного образования, а также перспективы формирования и развития формы дистанционного обучения в Азербайджане. Также упоминаются преимущества дальнейшего дистанционного обучения.

**N. Naghizade**

## Theoretical look to system of distant education

## Summary

The article covers the history, essence and content of distance education, as well as prospects for the formation and development of distance education in Azerbaijan. In addition, the advantages of distance education are alas mentioned.

**Redaksiyaya daxil olub:** 13.02.2018